***TARİX, ARXEOLOGİYA VƏ ANTROPOLOGİYA ELMLƏRİ***

**UOT:** 228 94.(479.24).
**KBT:** 63.3(5 e)6
**MJ №** 143

# Qərbi Azərbaycana ermənilərin axını və azərbaycanlıların sıxışdırılması

**Sevda Yusifova***
**Kamina Məmmədova****

**Abstrakt.** Tarixən böyük dövlətlər öz siyasətləri naminə Vətəni, torpağı, milli mənəvi dəyərləri olmayan kiçik xalqlardan bir alət kimi istifadə etmişlər və say etibari ilə az olan belə xalqlardan biri də ermənilər olmuşdur. Xirstian Avropasının və çar Rusiyasının havadarlığı ilə Qafqazda məskunlaşan ermənilər son iki əsrdə azərbaycanlılara qarşı dəfələrlə soyqırım həyata keçirmiş və yerli əhalini deportasiyaya məruz qoymuşdur. XIX əsrdə başlanan və XX əsrdə öz qəddarlığı ilə analoqu olmayan erməni vəhşiliyinə nəhayət ki, 44 günlük Vətən müharibəsi ilə son qoyuldu- Azərbaycan Ordusu Böyük Qayıdışı uğurla həyata keçirdi. İlkin olaraq Dağlıq Qarabağdan və ona bitişik 7 rayondan erməni işğalçıları qovuldu və indi Böyük Qayıdışın ikinci mərhələsi- əzəli Qərbi Azərbaycan torpaqlarına qayıdışı uğurla həyata keçirməyə başlamışdır.

**Açar sözlər:** köçürülmə, vandalizm, qətliyam, soyqırım, deportasiya

## 1.Giriş

Erməni millətçiləri tarixən öz havadarlarının, rusların və xristian Avropasının köməyi ilə ayrı-ayrı vaxtlarda azərbaycanlılara qarşı qətliyamlar, soyqırımlar törətmiş və deportasiya siyasəti həyata keçirmişlər. Bu cinayətlər haqqında materiallar uzun müddət arxivlərdə gizli saxlanılmışdır, yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra tarixi həqiqətlər üzə çıxarılmış, bu sahədə ciddi tədqiqat əsərləri yazılmış, Prezident tərəfindən bu hadisələrə

* ADNSU-nun “Humanitar fənlər” kafedrasının baş müəllimi; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: sevda.yusifova@hotmail.com
https://orcid.org/0000-0002-2605-9997
** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
ADNSU-nun “Humanitar fənlər” kafedrasının dosenti; Bakı, Azərbaycan
E-mail: kmamedova1962@mail.ru
https://orcid.org/0000-0002-9955-6812

**Məqaləyə istinad:** Yusifova, S., & Məmmədova, K. [2022] Qərbi Azərbaycana ermənilərin axını və azərbaycanlıların sıxışdırılması. *“Metafizika” jurnalı, 5*(4), səh.88-98.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 25.01.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 15.08.2022*
*Çapa qəbul edilmişdir: 14.10.2022*

hüququ-siyasi qiymət verilməsi məqsədi ilə fərmanlar imzalanmışdır. Müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı yarandı, gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açıldı, təhrif edilmiş hadisələr özünün əsl qiymətini aldı.

Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsası qoyuldu, bu milli faciəsinin davamı kimi torpaqlarımızın zəbti başlandı. Qısa bir müddətdə ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi, İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində “erməni vilayəti” yaradıldı- bu süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu, Azərbaycan torpaqlarında “Böyük Ermənistan” yaradılmasına “bəraət qazandırmaq məqsədilə” erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı.

## 2.Ermənilərin müstəqil dövlət yaratmaq arzusu

Ermənilərin öz müstəqil dövlətlərini yaratmaq arzusuna ilkin təkan verən amillərdən ən başlıcası XVI-XVII əsrlərdə Səfəvilərlə Osmanlı Türkiyəsi arasında uzun sürən müharibələr olmuşdur. Səfəvi hökmdarları Türkiyə ilə mübarizədə bir sıra Avropa ölkələrinin köməyinə arxalanmaq üçün xristian agentlərdən-erməni tacirləri və din xadimlərindən istifadə etmişdilər. Erməni tacirləri varlandıqca erməni kilsələrinin var-dövləti aşıb-daşır, nəticədə onların dövlət yaratmaq üçün iştahları daha da güclənirdi. XVII əsrin ortalarında erməni kilsəsi Yaxın Şərqə maraq dairəsi baxımından onlara ən əlverişli himayəçinin Rusiya olması qənaətinə gəldilər- çarlarının xarakterini öyrənən ermənilər yəqin etmişdilər ki, hədiyyə adı altında rüşvət verməklə onları öz tərəflərinə çəkə və nəticədə öz istəklərinə nail ola bilərlər. Avropanın real köməklik göstərməyəcəyinə əmin olan ermənilər öz bədnam niyyətlərini həyata keçirmək üçün yalnız Rusiyaya arxalanmaq qənaətinə gəldilər.

Müxtəlif yollarla yüksək hərbi rütbələr əldə etmiş ermənilər rus qoşunlarının Zaqafqaziyaya yürüşü zamanı ordunun önündə getmiş, Azərbaycanın şimal və cənub xanlıqlarının işğalında müstəsna rol oynamışdılar. İrəvan xanlığı ərazisində yaşayan Oğuz boyları VII əsrdən etibarən İslam dinini qəbul etməyə başladıqlarından, ermənilər tədricən gəlib Eçmiadzin kilsəsinə və digər kilsələrə sahib çıxmışdılar. Matenadaranda saxlanan alqı-satqı sənədlərinə görə, Ağqoyunlular 7 kəndi Vağarşabad (Eçmiədzin-Üçkilsə), Əştərək, Batrinç, Noraqavit Ağunatun Kirəcli və Muğnı katolikos Qriqor Makuluya 530 min Təbriz dinarına satmışdır. Tədricən varlanan erməni kilsəsi və mülkədarları XIX əsrin əvvəlində 60-dan artıq qədim Oğuz yaşayış məntəqələrinə sahib olmuşdurlar.

## 3.Azərbaycan türklərinin ilk qaçqınlıq dövrü

Qərbi Azərbaycandan Azərbaycan türklərinin ilkin qaçqınlıq dövrü 1801-ci ildə Rusiyanın Şərqi Gürcüstanı ilhaq etməsi və bunun nəticəsində Şəmşədil və Loru- Pəmbək bölgələrinin rusların əlinə keçməsi anından başlamışdır - Pəmbək əyalətinin 14 kəndindən təxminən 5-6 min əhali bölgəni tərk edərək İrəvan xanlığı ərazisinə və Qars paşalığına sığınmışdılar. 1804-cü ilin yazında İrəvan xanlığının ərazisindən 2 min erməni Loru-Pəmbək bölgəsində məskunlaşdırıldı. 1805-ci ildə Şörəyelin Rusiyanın tabeliyinə keçməsi ilə bu ərazidə yaşayan türklərin qaçqınlıq dövrü başlanmışdır,onlar da İrəvan xanlığının və Qars paşalığının ərazilərində sığınacaq tapmışdılar. Rus qoşunları Şörəyelə daxil olanadək sultanlığın ərazisində 170-ə yaxın kənd olmuşdur. 1805-ci ilin statistik məlumatlarına görə isə, Şörəyeldə cəmisi 524 ailə yaşamışdır.

XIX əsrin əvvələrində rus qoşunlarının İrəvan xanlığını işğal etməsində ermənilər xüsusi fəallıq göstərmişdilər. Üçkilsə kilsəsi arxada təxribatla məşğul olur, rus qoşunlarına silahla yardım edirdilər. 1827-ci ildə qarapapaqlardan 100 ailə və ayrımlardan 300 ailə Qarsa qaçmışlar, qüvvətli Uluxanlı tayfasından 600 ailə Bəyazidə, müsəlman cəlalı kürdləri isə Muşa qaçmışlar. Qarapapaqlardan digər 800 ailə isə Arazı keçib Həsən xanın (İrəvan xanı Hüseyn xanın qardaşı) dəstəsinə birləşmişlər. Onlarla birlikdə cəmədinli kürdləri (700 ailə), birukilər (400 ailə), dovmanlılar (400 ailə), çobangərəlilər (200 ailə), zilanlı kürdləri (1000 ailə) sərhəddən o taya - Türkiyəyə keçmişlər.

1828-ci il martın 21-də I Nikolay Erməni vilayəti yaradılması haqqında fərman verdi-erməni vilayəti İrəvan, Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölündü. İrəvan əyalətinə keçmiş İrəvan xanlığının 15 mahalı, Naxçıvan əyalətinə 5 mahal və Ordubad dairəsinə 5 mahal daxil idi. Erməni vilayətində 752 kənd olmuşdur-onlardan 521-i İrəvan əyalətində, 179-u Naxçıvan əyalətində, 52-si Ordubad dairəsində olmuşdur. Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən 310 kənd İrəvan əyalətində, 42 kənd Naxçıvan əyalətində, 6 kənd Ordubad dairəsində xaraba qalmış, əhalisi didərgin düşmüşdür. Deməli, dağıldılmış, xaraba qoyulmuş kəndlərlə birlikdə Erməni vilayətində cəmisi 1111 kənd olmuşdur. Erməni vilayətinin ərazisində təxminən 23.730 ailə (İrəvan əaylətində 17.000 ailə, Naxçıvan əyalətində 4.600 ailə, Ordubad dairəsində 2.130 ailə) yaşamışdır ki, orta hesabla, hər ailədə 5 nəfər götürdükdə, bu, 118.650 nəfər təşkil edir. Siyahıyaalmanın nəticələrinə görə, vilayətdə 81.749 müsəlman və 25.131 yerli erməni qeydə alınmışdır. 1840-cı ildə Erməni vilayətinin əvəzinə təşkil edilən İrəvan qəzası Gürcü-İmeretin quberniyasının tərkibinə daxil edilir. 1849-cu ildə İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Novo-Bəyazid qəzalarından

ibarət İrəvan quberniyası təşkil edilir və 1917-ci ilə qədər bu struktur dəyişməz qalmışdır.

Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiyanın himayəsinə keçmək hüququ verilirdi. Köçürülən ermənilərin əksəriyyəti müsəlman kəndlərində yerləşdirilmişdilər. Ermənilərin qarışıq yaşadıqları kəndlərdə isə köçkünləri demək olar ki, yerləşdirməmişdilər. Naxçıvan əyalətindən 500 erməni ailəsini Dərələyəzə köçürüldü. Xaricdən 8249 xristian ailəsi (onlardan cəmisi 100-ə qədəri aysor ailəsi, qalanları ermənilər olmuşdur) İrəvan, Naxçıvan və Qarabaq əyalətinə köçürülmüşdür.

İrandan köçürülən ermənilər 366 ailə tərkibində 1715 nəfər İrəvan, 265 ailə tərkibində 1110 nəfər Naxçıvan və 36 ailə tərkibində 182 nəfər Ordubad şəhərlərində yerləşdirilmişdilər. Köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəvdində, Ordubad dairəsinin 11 kəndində yerləşdirilmişdilər. Ümumiyyəqlə, İrəvan əyalətində 4599 ailə tərkibində 23568 nəfər, Naxçıvan əyalətində 2137 ailə tərkibində 10652 nəfər, Ordubad dairəsində 250 ailə tərkibində 1340 nəfər erməni yerləşdirilmişdir. Nəticədə erməni vilayətinə 6949 ailə tərkibində 35560 nəfər köçürülmüşdür. Əgər yeni təşkil edilmiş erməni vilayətində müsəlmanların sayı 81749 nəfər (16078 ailə) və ermənilərin sayı 25131 nəfər (4428 ailə) idisə, İrandan erməniləri köçürdükdən onların sayı 60691 nəfərə (11377 ailə) çatmışdı. Bununla da ermənilərin sayı 24 faizdən 43 faizə qalxmışdı. Əgər nəzərə alsaq ki, ümumiyyətlə, İrandan köçürülən 8249 ailədən 6949-u Erməni vilayətində yerləşdirilmişdir, onda belə qənaətə gəlmək olar ki, yerdə qalan 1300 ailə Qarabağa və Zəngəzura köçürülmüşdür.

Rusiya-İran müharibələri nəticəsində İrəvan xanlığının ərazisindən qaçqın düşmüş azəri türkləri Şərqi Anadoluda türk paşalıqlarının ərazilərində sığınacaq tapmışdılar. Rusların Şərqi Anadoluya hücumu zamanı qırğınlara və yenidən köçməyə məruz qalanların əksəriyyəti yenə də azəri türkləri idilər. Bu dəfə onlar Türkiyənin içərilərinə doğru köçməyə məcbur olmuşdurlar. 1829-cu il Ədirnə müqaviləsinin 13-cü maddəsinə əsasən, Türkiyənin işğal olunmuş ərazilərində qalan ermənilərə 18 ay müddətində daşınan əmlakları ilə Rusiyanın tabeliyinə keçmək hüququ verilmişdir. Rusların Qars, Ərdəhan, Bəyazid, Ərzurum və digər bölgələrdən geri çəkilməsi türklərə xəyanət edən erməniləri çıxılmaz vəziyyətə salmışdır. Erməniləri bu vəziyyətdən xilas etmək üçün rus qoşunlarının komandanlığı onları yeni işğal edilmiş ərazilərə köçürməyi və bununla da Türkiyə ilə sərhəd boyu ərazilərdə xristianların say üstünlüyünü təmin etməyi qərara almışdır. Qars və onun ətrafından köçənlər Ələyəz (Alagöz) ətrafındakı boşalmış kəndlərdə məskunlaşdırılmış, Loru

dərəsinə yerləşmək üçün isə 95 ailəyə bilet (vəsiqə) verilmişdi. Həmçinin Qarsdan çıxıb Gümrüyə yola düşən 400 ailəyə biletin verildiyini bildirilmişdi.

1828-1829-cu illərdə Erməni vilayətin ərazisinə 21666 nəfər (3682 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürdləri köçürülmüşdü. Köçürülən ermənilər Qırxbulaq, Sürməli, Talın, Körpübasar, Abaran, Dərəçiçək və Göycə mahallarının 129 kəndində yerləşdirilmişdi. 1829-cu ilə qədər Şörəyel-Pəmbək distansiyasına 1536 ailə (5425 nəfər kişi cinsi), sonra isə Türkiyədən 3148 ailə (10575 nəfər kişi cinsi) köçürülmüşdür. 1832-ci ilin sonu, 1833-cü ilin əvvəlində Türkiyədən Zalqaya köçürülən ermənilərdən 182 ailə (674 nəfər kişi cinsi) yenidən Şörəyel-Pəmbək distansiyasına köçürülmüşdü. Köçürülənlərin arasında 169 yunan və 963 nəfər erməni katolikləri (frankları) var idi. Şörəyel-Pəmbək bölgəsindəki 100-ə yaxın kənddə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdilər. Ümumiyyətlə, 1826-1829-cu illərdə erməni vilayətinə İran və Türkiyədən 57266 nəfər erməni (10631 ailə) köçürülmüşdü. Köçürülmələrdən əvvəl həmin ərazidə cəmisi 25131 nəfər (4428 ailə) erməni yaşamışdır. Bu illərdə İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən türklərin xeyli hissəsi qaçqın düşmüş, orada yalnız 81749 nəfər (17078 ailə) müsəlman qalmışdır. Köçürmələrdən sonra isə ermənilər 82397 nəfər (15059 ailə) təşkil etmiş, nəticədə sayca müsəlmanları üstələmişdirlər.

**4.Ermənilərin Qafqaza köçməsi**

1890-cı illərdə Türkiyədə baş verən erməni üsyanları nəticəsində 400 minə yaxın erməni yenə də Qafqaza köçüb gəlmişdir. XX əsrin əvvəlində Zaqafqaziyada yaşayan 1300000 ermənidən bir milyonu yerli əhali deyil, rusların vasitəsilə məskunlaşdırılmışdır. Sovet hakimiyyəti illərində xarici ölkələrdə yaşayan 100 mindən artıq erməni Ermənistana köçüb gəlmişdir. Bir sözlə, indiki Ermənistanda yaşayan ermənilərin sələflərinin demək olar ki, hamısı vaxtilə Cənubi Azərbaycandan və sonralar Turkiyədən, son dövrlərdə isə xarici ölkələrdən əsasən Suriyadan, Yunanıstandan, Livandan, Bolqarıstandan, Rumıniyadan köçüb gələnlərdən ibarətdir.

Ermənistanın Azərbaycana olan uydurma torpaq iddiaları heç bir tarixi mənbəyə söykənmədiyindən, rəsmi Yerevanın mövqeyi daha çox cığal uşağın hərəkətlərinə bənzəyir. Erməni alimlərinin "tarixi sübutları" əsasında yazılan əsərlər ancaq Ermənistanın dövlət səviyyəsində yeritdiyi işğalçılıq siyasətinin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Ermənipərəst beynəlxalq təşkilatlar isə bu cür "tarixi sübut"ları əllərində bayraq tutaraq məkrli siyasətlərini yeridirlər. Azərbaycan alimləri yüksək elmi səviyyədə, çoxsaylı epiqrafik, orta əsr, arxiv mənbələrinə əsaslanaraq sübut ediblər ki, Cənubi Qafqazda tarixən heç bir erməni siyasi qurumu mövcud olmamışdır.

Ermənilər üçün ilk dövlət 1918-ci ildə Qərbi Azərbaycan torpaqlarında yaradılmışdı. Sovet İttifaqı dövründə azərbaycanlıların bu torpaqlardan sıxışdırılıb çıxarılması ilə yanaşı onlara məxsus olan maddi-mədəniyyət abidələri dağıdılmış, yer adları erməniləşdirilmişdir. 1988-ci ildən sonra kütləvi terrora məruz qalan azərbaycanlılar bu əraziləri tərk etməyə məcbur olmuşlar və bundan sonra bu ərazidə qalan azərbaycanlılara məxsus olan maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıntılara, məhvə məhkum olunmuşdur.

Ümumilikdə İrəvan quberniyasının Üçkilsə rayonunda (Eçmiədzin qəzası) 36 prixod məscidi, Sürməli qəzasında 47 prixod məscidi, Şərur-Dərələyəz qəzasında 63 prixod məscidi, Novobəyazid qəzasında 14 prixod məscidi, İrəvan qəzasında 54 prixod məscidi fəaliyyət göstərmişdir. 1917-ci ilin əvvəllərindən 1918-ci ilin martınadək təkcə İrəvan quberniyasında 197 Azərbaycan kəndi erməni yaraqlıları tərəfindən dağıdılmışdır. İrəvan quberniyasının 1916-cı ildəki 375 min nəfərlik azərbaycanlı əhalisinin sayı azalaraq, 1922-ci ildə 70 min nəfərə enmişdir. Naxçıvan bölgəsində isə 1919-1921-ci illərdə 100 mindən bir qədər artıq əhalinin 73727 nəfəri ermənilər tərəfindən öldürülmüşdür.

Rus tədqiqatçısı İ.N.Şavrov yazırdı:

> *“1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 mindən çox İran və 84600 Türkiyə ermənisi köçürülmüş və onları erməni əhalisinin cüzi olduğu Yelizavetpol (Gəncə) (Qarabağ ərazisi bu quberniyaya daxil idi) və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirilmişdir. 1896-cı ildən 1908-ci ilə kimi Zaqafqaziyaya, o cümlədən Qarabağa 400-min erməni köçürülmüşdür”.*

Erməni tarixçisi M.G.Nersesyan belə yazırdı:

> *“XIX əsrin 20-ci illərinin sonunda bu bölgələrə, Şərqi Ermənistana 40000-dən çox İran, Türkiyədən isə 90000 erməni köçürülmüşdür”.*

1830-cu ildə Türkiyənin Ərzurum və Bəyazid ərazilərindən 45 min nəfər erməni köçüb gəlmiş və Göyçə mahalına məskunlaşmışdılar. 1915-ci ildə Rus ordusu ilə Türkiyədən gələn 200 min nəfər erməni Cənubi Qafqazın müxtəlif ərazilərinə, o cümlədən İrəvan quberniyasına yerləşmişdir. 1831-ci ildə İrəvan əyalətində 50 min nəfər azərbaycanlı, 45,2 min nəfər isə gəlmə erməni vardı. Qərbi Azərbaycan kəndlərində ermənilərin sayı artsa da, hələ XIX əsrin ikinci yarısında Ermənistanda 2310-kəndin 1500-dən çoxu azərbaycanlılara aid idi. Ümumiyyətlə, 1918-ci ildə Ermənistanda əhali 1.510.000 nəfərə çatırdı ki, bunun da 795.000 nəfəri erməni, 575.000 nəfəri müsəlman, 140.000 nəfəri isə digər millətlərdən idi. Keçmiş SSRİ dövründə, 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rusiyadan 50,9

min, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABD, Yunanıstan, Misir, İran və Livandan 35,4 min erməni Ermənistana köçürülmüşdür.

Qərbi Azərbaycanın İrəvan əyalətində qədim dövrdə, erkən və orta əsrlərdə mövcud olmuş türk mənşəli toponimlərin Azərbaycan türkcəsində olması bir daha Azərbaycan türklərinin Qərbi Azərbaycan ərazisinin qədim və yerli sakinləri olduğunu və orada əzəldən yaşadıqlarını sübut edir. Xanlıqlar dövründə İrəvan xanlığı 15 mahaldan - Qırxbulaq (22 kənd), Zəngibasar (26 kənd), Qərnibasar (52 kənd), Vedibasar (21 kənd), Şərur (50 kənd), Sürməli (49 kənd), Dərəkənd-Parçenis (55 kənd), Saadlı (9 kənd), Talin ( 20 kənd), Seyidli-Axsaqlı (20 kənd), Sərdarabad (22 kənd), Kərbibasar (40 kənd), Aparan (39 kənd), Dərəçiçək (37 kənd), Göyçə (59 kənd) ibarət olmuşdur. 1886-cı ildə tərtib olunmuş İrəvan quberniyasının xəritəsində göstərilən toponimlər azəri türkcəsindədir: Sarvanlar, Arzu kənd, Sərdarabad, Güllücə, Daşvurun, Qazı-Qışlaq, Mehriban, Şirabad, Qəmərli, Kamalı, Molla-Göyçə, Yaqublu, Alagöz, Gözəl dərə, Qara xal, Xeyirbəyli, Əli Məmmədli, Baş-abaran, Göyçə gölü və s. İrəvan quberniyasının xəritəsinə baxdıqda oradakı toponimlərin azəri türkcəsində göstərilməsi faktı Qərbi Azərbaycan - indiki Ermənistan ərazisini qədim və yerli sakinlərinin Azərbaycan türklərindən ibarət olması bir daha öz təsdiqini tapmış olur. İrəvan quberniyasının xəritəsində tarixi əhəmiyyəti olan faktlarından biri də Cənubi Qafqazda və Qərbi Azərbaycan ərazisinə İran və Türkiyədən ermənilərin köçürülməsinə baxmayaraq İrəvan qüberniyasının mərkəzi şəhərində, xüsusilə İrəvan şəhərinin özündə və digər yerlərdə yaşayan, tatarların (azəri türkləri) ermənilərdən sayca çox olmasıdır: İrəvan şəhərində 7228-tatar, 7142-erməni, İrəvan quberniyasının qəzalarında 52880-tatar, 36426-erməni, Gümrüda 881, Aleksandropol qəzasında 4580, Novo-Bəyazid qəzasında 29523 və Eçmiədzin qəzasında-30203 və Sürməli qəzasında 34351 tatar yaşayırdı.

1903-cü ildə tərtib olunmuş və 1914-cü ildə çapdan çıxmış Qafqaz hərbi dairəsinin hərbi topoqrafik xəritəsində də Qərbi Azərbaycanın ərazisindəki yer adları və Qarabağ ərazisindəki toponimlər ermənicə deyil, məhz türkcə olmuşdur: Alagöz dağı, Göyçə gölü, Bazar çayı, Gözəldərə dağı, Qəmərli, Dəvəli, Çardaxlı, Qarabulaq, Karvansara, Dilican, Dərəçiçək, Qabıqlı, Mədinə, Çubuqlu və s. Qeyd olunan hərbi xəritədə Qarabağın mərkəzi Xankəndi adı ilə göstərilir- bu hərbi xəritə İrəvan ərazisinin yerli sakinlərinin Azərbaycan türklərindən ibarət olmasını təsdiqləyən çox əhəmiyyətli, tarixi sənəddir. Erməni müəllifləri tərəfindən yazılmış və 1968-ci ildə Moskvada nəşr olunmuş, Ermənistanın tarixindən bəhs edən "Erevan" kitabında yazılıb: "İrəvan qalası 1582-1583-cü illərdə Fərhad paşa tərəfindən inşa edilmişdir". Ermənilər özləri 1441-cı ildən 1828-ci ilədək İrəvanı idarə etmiş 49

azərbaycanlı hakimin adlarını çəkir. “Erevan” adlı kitabda da İrəvan xanlığının idarə olunmasında iştirak etmiş xanlar sırasında erməni adı göstərilmir.

XX əsrin əvvəllərində İrəvan quberniyasının ərazisində hər biri bir memarlıq əsəri olan 310 məscid mövcud olmuşdur. 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında ilk erməni dövləti- Ermənistan Respublikası qurulduqdan sonra azərbaycanlılara məxsus maddi-mədəni irsə qarşı vandalcasına, dağıdıcı münasibət göstərilmiş, onları dağıdaraq yer üzündən silməyə başlamışlar. Monoetnik erməni dövlətində əvvəllər azərbaycanlıların yaşadıqları 703 yaşayış məntəqəsinin adları dəyişdirilərək ermənləşdirilib. Özlərini dünyaya “qədim xalq”, “mədəni xalq” kimi təqdim edən ermənilər, həqiqətdə azərbaycanlıların mədəni irsinə qarşı əsl barbarlıq və vandallıq “nümunəsi” göstərirlər.

Qərbi Azərbaycan əhalisinin tarixinin öyrənilməsi həm elmi, həm də praktik baxımdan vacibdir. Əhalinin ilk siyahıya alınmaları 1846-cı ildə belçikalı Adolf Ketlenin rəhbərliyi ilə keçirilmişdir. Əhalinin ilk müasir siyahıyaalınması 1897-ci ildə olmuşdur - bu siyahıda müəyyən dərəcədə təhriflər müşahidə olunsa da o, bu günə qədər mühüm əhəmiyyətə malikdir. 1926, 1937, 1939, 1959, 1970, 1979 və 1989-cu illərdə Sovet İttifaqında, o cümlədən, Ermənistan SSR-də siyahıyaalmalar keçirilmişdir. 1989-cu ildə keçirilən siyahıyaalma Sovet əhalisinin siyahıyaalması tarixində sonuncu siyahıyaalma olmuşdur. 1988-ci ildən başlamış “genosid” siyasəti siyahıyaalmanın düzgün aparılmasına imkan vermədi. Əhali haqda verilən məlumatların çoxu saxtalaşdırılmışdır- belə ki,1988-1989-cu illərdə Ermənistan SSR-də baş verən hadisələr zamanı ölkə ərazisində yaşayan azərbaycanlıların əksəriyyəti öz yurd-yuvalarından qovulmuşdular.Bütün dövrlərdə əhali ilə bağlı olan problemlər ölkənin sosial-iqtisadi və siyasi inkişafına təsir göstərirdi - bu baxımdan hər bir ölkənin ərazisində keçirilən siyahıyaalma müvafiq dövrdə sosial-iqtisadi, siyasi və mədəni dəyişiklikləri özündə əks etdirir.

1948-1953-cü illər deportasiyasını dərindən təhlil etmək deportasiyanın ideya rəhbərlərini, təşkilatçılarını və həyata keçirilməsinin bütün məsuliyyətini aydınlaşdırır. Ümumiyyətlə, əhaliyə aid məlumatlar içərisində əhalinin say dinamikasının müəyyənləşdirilməsi əsas yer tutur. 1941-1945-ci illər müharibəsi, müharibədən az sonra 1948-1953-cü illər deportasiyası Ermənistan azərbaycanlılarının say dinamikasında əsaslı sarsıntı yaratmışdır. Sovet hakimiyyətinin 1920-1950-ci illərdə apardığı siyasəti nəticəsində Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların sayı kəskin azalmışdır.

1959-cu il siyahıyaalmaların nəticələrini araşdırarkən Qərbi azərbaycanlıların demoqrafik vəziyyətində artım müşahidə olunur.

Azərbaycan əhalisinin say artımı əsasən, azərbaycanlı ailələrindəki təbii artımın hesabına olmuşdur. Bu dövrlər ərzində yəni 1920-1990-cı illər dövründə Ermənistan SSR ərazisində yaşayan ermənilərin sayı süni surətdə artırılmışdır. Nəticədə, əzəli Azərbaycan torpağı ərazisində erməni dövləti yarandı. Qərbi Azərbaycan əhalisinin ruslaşdırılması və erməniləşdirilməsi iflasa uğradı. Əhali siyahıyaalmalarının hamısında Qərbi Azərbaycanın azərbaycanlı əhalisi öz doğma dilini Azərbaycan dili hesab etdiklərini bildirirdilər.

1959, 1970, 1979 və 1989-cu illərin əhali siyahıyaalmalarına əsasən, Ermənistan SSR-da yaşayan azərbaycanlı ailələrinin sayında artım müşahidə olunur. Bununla bərabər, ailənin həcmində də artım müşahidə olurdu. Şəhər yerində 3-4 uşaqlı ailələr, kənd yerində 5-6 və daha çox uşaqlı ailələr üstünlük təşkil edirdi. Tənha ailələrin sayı az miqdarda idi. Tənha ailələr şəhərə nisbətən kənd yerlərində üstünlük təşkil edirdilər.

**5.Nəticə**

Nəhayət ki, müstəqillik qazandıqdan 30 il sonra öz tariximiz, itirilmiş əzəli torpaqlarımız, xalqımıza qarşı olan ədalətsizliklər haqqında tarixi həqiqətləri üzə çıxarmaq imkanı əldə etdik. Azərbaycanın işğal olunmuş torpaqları qaytarmaq uğrunda apardığı 44 günlük Vətən müharibəsində qazandığı tarixi qələbə Böyük Qayıdışın başlanğıcı oldu. Ali Baş Komandanın rəhbərliyi ilə Müzəffər ordumuz bu qayıdışın birinci mərhələsini 1988-2020 uğurla başa vurub son 30 ildə işğal altında olan torpaqlarımızı azad etdi. İndi qarşıda əzəli torpaqlarımıza 1918-1988-ci illərdə itirilmiş yurd yerlərinə qayıtmaq dayanır və əminəm ki, bu ikinci mərhələni də uğurla başa vurub 1800-1918-ci illərdə itirdiyimiz torpaqlara qayıtmaq istəyimizi reallaşdıra biləcəyik.

## ƏDƏBİYYAT

1.Əhmədov, Y.P. (2011). Qloballaşma və inteqrasiya-mənəvi dəyərlərin cırlaşması. Bakı.
2.Əhmədov, Y.P. (2011). Bəşəriyyət mənəvi süqut ərəfəsindədir. Bakı.
3.Əhmədov, Y.P. (2013). Şəhidlik fəlsəfəsi. Bakı.
4.Əhmədov, Y.P. (2018). Bəşəriyyətin mənəvi durumu fəlsəfənin taleyüklü məsələsidir. Bakı.
5.Agamalıyeva, V. Ş. (2017). Qərbi Azərbaycanda ermənilərin törətdiyi vəhşiliklər. Bakı.
6.https://president.az/articles/
7.ikisahil.az/post/

8.yap.org.az/az/view/interview/127
9.news.unec.edu.az/tags/xalg-gezeti

## Приток армян в Западный Азербайджан и притеснение азербайджанцев

**Севда Юсифова**[*]
**Камина Мамедова**[**]

**Абстракт.** Исторически великие державы в качестве инструмента для своей политики использовали малые народы не имеющие родины, земли и устойчивых моральных ценностей. Армяне были среди таких немногих народов. Армяне, поселившиеся на Кавказе при покровительстве христианской Европы и царской России за последние два столетия неоднократно совершали геноцид азербайджанцев и способствовали депортации местного населения. Зверствам, начавшимся в XIX веке и не имевшим аналогов в XX веке, был окончательно положен конец в 44-дневной войне и армия Азербайджана успешно завершила Великое Возвращение. Изначально армянские оккупанты были изгнаны из Нагорного Карабаха и семи прилегающих к нему районов, а теперь начался второй этап-успешное возвращение на исконные земли древнего Западного Азербайджана.

**Ключевые слова:** переселение, вандализм, убийство, геноцид, депортация

[*] Преп. кафедры «Общественные дисциплины» АГУНП; Баку, Азербайджан (ответственный автор)
E-mail: sevda.yusifova@hotmail.com
https://orcid.org/0000-0002-2605-9997
[**] Доцент кафедры «Общественные дисциплины» АГУНП; Баку, Азербайджан
E-mail: kmamedova1962@mail.ru
https://orcid.org/0000-0002-9955-6812

**Цитировать статью:** Юсифова, С., & Мамедова, К. [2022]. Приток армян в Западный Азербайджан и притеснение азербайджанцев. *Журнал «Metafizika», 5*(4), с.88-98.

***История статьи:***
*Статья поступила в редакцию: 25.01.2022*
*Отправлена на доработку: 15.08.2022*
*Принята для печати: 14.10.2022*

# The influx of Armenians to West Azerbaijan and oppression against Azerbaijanis

**Sevda Yusifova***
**Kamina Mamedova****

**Abstract.** Historically, the great powers used small nations without a homeland, land and stable moral values as atool for their politics, and the Armenians were one of the few such nations. The Armenians who settled in the Caucasus under the patronageof christian Europe and tsar Russia have repeatedly committed genocide of Azerbaijanis over the past two centuries and facilitated the deportation of the local population. The Armenian atrocities that began in the 19th century and had no analogues in the 20th century were finally brought to an end in the 44-day war and the Azerbaijani army successfully completed the Great Return. Initially, the Armenian occupants were expelled from Nagorno-Karabakh and seven adjacent regions, and now the second stage has begun- a successful return to the ancestral lands of ancient Western Azerbaijan.

**Keywords**: resettlement, vandalism, murder, genocide, deportation

## REFERENCES

1.Ahmadov, Y.P. (2011). *Globalization and integration- clash of moral values.* Baku. (in Azerbaijani)
2.Ahmadov, Y.P. (2011). *Humanity is on the verge of spiritual collapse.* Baku. (in Azerbaijani)
3.Ahmadov, Y.P. (2013). *The philosophy of martyrdom.* Baku. (in Azerbaijani)
4.Ahmadov, Y.P. (2018). *The moral condition of mankind is the fateful issue of philosophy.* Baku. (in Azerbaijani)
5.Agamaliyeva, V. Sh. (2017). *Atrocities committed by Armenians in Western Azerbaijan.* Baku. (in Azerbaijani)
6.https://president.az/articles/
7.ikisahil.az/post/
8.yap.org.az/az/view/interview/127
9.news.unec.edu.az/tags/xalg-gezeti

* Senior lecturer at the Faculty of Social Sciences, ASOIU; Baku Azerbaijan (corresponding author)
E-mail: sevda.yusifova@hotmail.com
https://orcid.org/0000-0002-2605-9997
** Assoc. Professor at the Faculty of Social Sciences, ASOIU; Baku, Azerbaijan
E-mail: kmamedova1962@mail.ru
https://orcid.org/0000-0002-9955-6812

**To cite this article:** Yusifova, S., & Mamedova, K. [2022]. The influx of Armenians to West Azerbaijan and oppression against Azerbaijanis. *“Metafizika” journal*, *5*(4), pp.88-98.

***Article history:***
*Received: 25.01.2022*
*Accepted: 14.10.2022*